**Cavid Ramiz oğlu Məlikli**

**UOT:338.012:657.6; JEL:M40;H83;M42;M48.**

# Müasir dövrdə Azərbaycanın kənd təsərrüfatında auditin təkmilləşdirilməsinin əsas istiqamətləri

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir dövrdə Azərbaycanın kənd təsərrüfatında auditin təkmilləşdirilməsinin əsas istiqamətləri tədqiqindən ibarətdir. Yeni çağırışlar konteksində auditin strateji funksiyaları və rolu açıqlanmışdır. Azərbaycanın milli iqtisadiyyatının strukturunda mühüm əhəmiyyət kəsb edən kənd təsərrüfatının inkişafında auditin səmərəliyinə baxılmışdır. Kənd təsərrüfatının müxtəlif istiqamətlərində ehtiyatların üzə çıxarılmasında, şəffaflığın və hesabatlılığın təmin olunmasında auditin əhəmiyyəti verilmişdir. Kənd təsərrüfatının elmi və texnoloji yeniliklər əsasında yeni inkişaf mərhələyə qaldırılmasılnda auditin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş və müvafiq təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası – məqalədə baxılan əsas problemlər üzrə təhlil, sintez, müqayisə və ümumiləşdirmə kimi iqtisadi metodlardan ibarətdir. Həmçinin araşdırılan problemlərə dair digər tədqiqatçıların yanaşmaları da nəzərə alınmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə verilmiş elmi-praktiki nəticələrdən Azərbaycanın kənd təsərrüfatının inkişafında auditin rolunun təkmilləşdirilməsində və gücləndirilməsində istifadə edilməsi imkanları ilə bağlıdır. Tədqiqatın nəticələri – müasir dövrdə mürəkkəb obyektiv reallıqlar şəraitində kənd təsərrüfatında inkişaf proseslərinin səmərəliliyinin artırılmasında audit yoxlamaları hesabına mövcud nöqsanların aşkarlanması və adekvat tədbirlərin görülməsindən ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – əsas elmi yenilik qlobal transformasiyalar və yeni çağırıçlar konteksində kənd təsərrüfatının inkişafında auditin roluna fərqli yanaşmaların müəyyənləşdirilməsi və əsaslandırılmasıdır. Kənd təsərrüfatının qarşısınmda duran prioritet vəzifələrin reallaşdırılmasında mövcud resurslardan istifadənin daha səmərəli modelləşdirilməsi, maliyyə və investisiya axınlarının hərəkətinə nəzarətin gücləndirilməsi məsələlərində auditin strateji rolu ciddi arqumentlərlə verilmişdir. Yaxın perspektivdə kənd təsərrüfatının inkişafının daha güclü hədəflərinin müəyyənləşdirilməsində və reallaşdırılmasında auditin rolunun təkmilləşdirilməsi üzrə təkliflər irəli sürülmüşdür.*

***Açar sözləri:*** *kənd təsərrüfatı, audit, kənd təsərrüfatında auditin rolu, auditin strateji əhəmiyyəti, auditin təkmilləşdirilməsi problemləri, auditin təkmilləşdirilməsi istiqamətləri.*



## Giriş

Bazar münasibətləri şəraitində Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin inkişafının ən mühüm şərtləri məhsul istehsalının həcminin əhəmiyyətli dərəcədə artırılması və onların keyfiyyətinin yaxşılaşdırılmasıdır. Müasir şəraitdə kənd təsərrüfatı müəssisələrinin cari və əsaslı fəaliyyətinin maliyyələşdirilməsinin əsas mənbəyi mənfəətdir. Çünki kənd təsərrüfatı müəssisələri kənardan praktiki olaraq investisiyalar və subsidiyalar, kompensasiyalar və ya büdcə kreditləri şəklində kifayət qədər dövlət yardımı almırlar. Ona görə də hər bir kənd təsərrüfatı müəssisələri bütün daxili səy və ehtiyatlarını öz fəaliyyətindən (bitkiçilik, heyvandarlıq, sənaye istehsalı və s.) maksimum mənfəət əldə etməyə yönəltməlidir. Kənd təsərrüfatı iqtisadiyyatın spesifik sahəsidir ki, burada mövsümilik, iqlim və təbii şərait və s. kimi amillər mühüm rol oynayır. Azərbaycan öz ərzaq ehtiyatlarını qoruyur, kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif güzəştlər və subsidiyalar verməklə ehtiyatlarını artırır, müxtəlif vergi güzəştləri tətbiq edir. Demək olar ki,

*©Cavid Ramiz oğlu Məlikli Azərbaycan Kooperasiya Universitet, doktorant. E-mail: meliklid@bk.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarına dəstək üzrə həyata keçirilən bütün tədbirlər kompleksi məhsul istehsalı, saxlanması, daşınması, alıcı və tədarükçülərlə hesablaşmalar və s. baxımından fəaliyyətin aparılmasına mühüm təsir göstərir. Lakin bütün bunlara baxmayaraq, kənd təsərrüfatı müəssisələri vaxtaşırı kreditor və debitor borcları ilə bağlı problemlərlə üzləşirlər. Debitor borcları ilə bağlı problemlər müştərilərin ödəniş intizamının aşağı olması ilə bağlıdır ki, bu da kreditorla bağlı problemlərin yaranmasına gətirib çıxarır ki, bütün bunlar sənayenin istehsal fəaliyyətinə mənfi təsir göstərir. Kənd təsərrüfatı istehsalının səmərəliliyinin yüksəldilməsi və kənd təsərrüfatı təşkilatlarının maliyyə vəziyyətinin yaxşılaşdırılması bir çox amillərdən, o cümlədən müəssisələrin əsas fondlarla, dövriyyə vəsaitləri ilə təchiz edilməsindən, qabaqcıl istehsal texnologiyalarından, əkinçilik sistemlərindən, gübrələrdən istifadə səviyyəsindən asılıdır. Kənd təsərrüfatı istehsalının səmərəliliyinin və kənd təsərrüfatı təşkilatlarının rentabelliyinin artırılmasında bu sahənin səmərəli idarə edilməsi sisteminin təşkili heç də az əhəmiyyət kəsb etmir. Effektiv idarəetmənin əsasını müvafiq maliyyə uçotu və nəzarət məlumatları təşkil edir. Bu nəzarət məlumatlarının düzgünlüyü auditin təşkili səviyyəsindən asılıdır. Kənd təsərrüfatı sənayesində təşkilatların auditi aparılarkən təchizatçılar və podratçılar arasında hesablaşmaların bütün aspektləri nəzərə alınmalıdır. Mövcud şəraitdə aqrar sektorda fəaliyyət göstərən müəssisələr üçün daşınar və daşınmaz əmlakın və onların köhnəlməsi, ehtiyatda olan xammal, material və malların, debitor və kreditor borclarının dəqiq uçotunun aparılması mühüm əhəmiyyət kəsb edir.

**Yeni çağırışlar dövründə kənd təsərrüfatında auditin təkmilləşdirilməsi problemlərinin tədqiqi**



Kənd təsərrüfatı müəssisələrinin əsas vəsaitlərinin rasional idarə edilməsi yalnız audit prosedurlarının kompleksini təşkil edən səmərəli mexanizm olduqda mümkündür. Auditin ən mühüm və vacib sahələrindən biri əsas vəsaitlərlə aparılan əməliyyatların auditidir. İstənilən təşkilati-hüquqi formada olan müəssisələrdə əsas vəsaitlər istehsalın əsasını təşkil edir. Əsas vəsaitlərlə əməliyyatların auditinin məqsədi bu obyektlərin alınması, istismarı, köhnəlmə və təmir fonduna ayırmalar üzrə əməliyyatların uçotunda və hesabatında etibarlılığın müəyyən edilməsindən ibarətdir. Hal-hazırda əsas vəsaitlərin auditinin aparılması üçün çoxlu sayda üsullar hazırlanmışdır. Daxili auditin məqsədindən, onun yoxlanılan obyektləri əhatə etməsinin tamlığından və müəssisənin maliyyə-təsərrüfat fəaliyyəti haqqında müxtəlif, sübuta əsaslanan məlumatların əldə edilməsi zərurətindən asılı olaraq, daxili auditorlar müxtəlif metodoloji və texniki üsullardan istifadə edə bilərlər. Maliyyə uçotu məlumatlarının və hesabatların etibarlılığının obyektiv qiymətləndirilməsi üçün müəssisənin daxili auditinin tamlığına sənədli yoxlamalar vasitəsilə nail olunur. Buna görə də təsərrüfat əməliyyatlarının mahiyyətini, qanunauyğunluğunu, məqsədəuyğunluğunu, etibarlılığının qiymətləndirilməsini müəyyən etmək üçün daxili auditorlar sənədlərin və maliyyə uçotu registrlərinin yoxlanılması üçün müxtəlif metodoloji üsullardan istifadə edə bilərlər. Bunlara daxildir: sənədlərin yoxlanılması, arifmetik (hesablama) yoxlama, sənədlərin müqayisəsi, iqtisadi təhlil. Əgər normativ baza hər hansı əməliyyatın qanuniliyi sualına cavab vermirsə, məntiqi təhlildən istifadə oluna bilər. Onda daxili auditor sağlam düşüncə baxımından bu əməliyyatın məqsədəuyğunluğunu nəzərə almalıdır. Lakin məntiqi təhlildən əvvəl normativ və elmi təhlil aparılmalıdır [1, s.505]. Kənd təsərrüfatı müəssisələrində audit rasional şəkildə qurulmalıdır. Bu zaman müəssisə rəhbərlərinin qarşısında aşağıdakı vəzifələr durmalıdır: audit strategiyasının işlənib hazırlanması; auditin təşkili və audit qrupunun bütün fəaliyyətinin əlaqələndirilməsi; bütün göstəricilərin sistemli təhlilinin aparılması və audit planının və proqramının icrasına nəzarət edilməsi və qəbul edilmiş plan və proqramları mümkün qədər və vaxtında uyğunlaşdırmaq, müvafiq dəyişikliklər etmək [2, s.305].

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Kənd təsərrüfatı müəssisələri hər birinin özünəməxsus xüsusiyyətləri olan bir çox sənaye sahələrində fəaliyyət göstərir. Kənd təsərrüfatı müəssisələrində maliyyə uçotunun təşkilinin xüsusiyyətlərini nəzərə alaraq, onlarda auditin aparılması üzrə ixtisaslaşmış audit xidmətinin yaradılması məqsədəuyğundur. Ölkənin aqrar-sənaye kompleksində bazar münasibətlərinin inkişafı təsərrüfat subyektləri arasında iqtisadi münasibətlərin mexanizmlərinin əsaslı surətdə dəyişdirilməsini, eləcə də aqrar islahatların daha effektiv həyata keçirilməsi üçün səmərəli infrastrukturun yaradılmasını nəzərdə tutur. İqtisadiyyatın aqrar bölməsində bazar islahatlarının aparılması və kənd təsərrüfatı təşkilatlarına istehsal, təsərrüfat və maliyyə fəaliyyəti məsələlərinin həllində tam müstəqilliyin təmin edilməsi iqtisadi nəzarətin yeni növlərinin tətbiqini zərurili edir. Bazar şəraitində kənd təsərrüfatı təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyətinə iqtisadi nəzarətin səmərəli və perspektivli növlərindən biri müstəqil nəzarət - auditdir. Beləliklə, istənilən kənd təsərrüfatı müəssisəsinin əsas məqsədi məhsulun (işlərin, xidmətlərin) normal istehsal və satış xərcləri ilə öz fəaliyyətindən ən böyük mənfəət əldə etməkdir. Ona görə də müasir şəraitdə gəlirlər, xərclər və maliyyə nəticələri kənd təsərrüfatı təşkilatlarının xarici audit, təsərrüfatdaxili nəzarət və idarəetmə sisteminin əsas obyektləridir. Gəlirlər, xərclər və maliyyə nəticələri kənd təsərrüfatı təşkilatlarının maliyyə vəziyyətinə, ödəmə qabiliyyətinə və rifahına əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də, maliyyə fəaliyyətinin göstəricilərinin etibarlılığını, istifadə olunmamış daxili ehtiyatları müəyyən etmək və xərcləri optimallaşdırmaq, bütün fəaliyyət növlərinin gəlirliliyini artırmaq üçün bu idarəetmə obyektləri daxili və xarici audit sistemində hərtərəfli yoxlanılmalıdır.

Kənd təsərrüfatı təşkilatlarının maliyyə nəticələrinin effektiv auditi onun düzgün təşkilini, gəlirlər, xərclər və təsərrüfat fəaliyyəti ilə bağlı faktların məzmununu açıqlamağa imkan verən auditin xüsusi standartlarının, metodiki və texniki üsullarının işlənib hazırlanmasını və istifadəsini tələb edir. Kənd təsərrüfatı istehsalının idarə olunması səviyyəsinin yüksəldilməsinin mühüm istiqaməti maliyyə uçotu məlumatlarının keyfiyyətinin yüksəldilməsidir. Son illərdə auditin keyfiyyətinə nəzarət mövzusu çox aktuallaşıb. Bu, daha çox müəssisələrdə maliyyə səhvləri ilə əlaqədardır. Buna görə də təşkilatların audit fəaliyyətinin keyfiyyəti bir sıra hallarda sual altındadır. Audit fəaliyyətinin keyfiyyətinə nəzarət müəssisədə maliyyə uçotunda böyük rol oynayır. Kənd təsərrüfatı müəssisələrində maliyyə uçotunda pozuntuların erkən aşkarlanmasına və sonrakı aradan qaldırılmasına zəmanət verən auditin həyata keçirilməsidir. Beləliklə, auditor fəaliyyətinin keyfiyyəti müəssisələrdə uçotun düzgün aparılmasına təsir göstərir. Audit fəaliyyətinin keyfiyyətinə nəzarətin təşkili xarici və daxili səviyyələrdə həyata keçirilir. Xarici - dövlət səviyyəsində və ya müstəqil və tənzimlənən audit təşkilatları səviyyəsində nəzarəti nəzərdə tutur. Daxili - audit təşkilatlarının daxili nəzarətini əhatə edir. Auditdə bu sahə üzrə auditorlar üçün məcburi olan qanunvericilik aktlarına müəyyən tələblər qoyulur. Həmçinin auditorların etik davranış kodeksi də mövcuddur ki, bunlara auditin keyfiyyətinə nəzarət zamanı riayət edilməlidir. Auditin keyfiyyətinə nəzarətin təşkili sisteminə müəssisədə effektiv maliyyə uçotunun aparılması üçün təşkilat rəhbərliyi tərəfindən aparılan siyasəti pozmayan konkret məqsədlər daxildir. Bu məqsədlərə daxildir:

- idarəetmə siyasətinə uyğunluq;
- aktivlərin təhlükəsizliyinin təmin edilməsi;
- səhvlərinin müəyyən edilməsi və aradan qaldırılması;
- maliyyə uçotunun etibarlılığı və tamlığı;
- etibarlı və təsdiqlənmiş maliyyə məlumatlarının toplanması.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Audit təşkilatlarının keyfiyyətinə xarici nəzarət auditorların özünütənzimləmə təşkilatları tərəfindən həyata keçirilir. Audit firmalarının xarici keyfiyyətə nəzarət yoxlamaları planlı və ya plansız ola bilər. Plandankənar auditin səbəbi audit şirkətinin və ya konkret auditorun işinin keyfiyyəti ola bilər. Bütün audit təşkilatlarında daxili auditin keyfiyyətinə nəzarət sistemi olmalıdır. Audit təşkilatında daxili auditin keyfiyyətinə nəzarət sistemi bu təşkilatın daxili standartlarına və prinsiplərinə əsaslanır. Audit təşkilatının işinə daxili keyfiyyətə nəzarətin üç növü var:

- Auditin keyfiyyətinə ilkin nəzarət planlaşdırma mərhələsində baş verir və təşkilatın rəhbəri tərəfindən həyata keçirilir.
- Cari auditin keyfiyyətinə nəzarət audit qrupunun rəhbəri tərəfindən həyata keçirilir və audit təşkilatının bütün üzvlərinin işinə nəzarəti təmin edir. Bu mərhələdə ayrı-ayrı audit sahələrinə nəzarət həyata keçirilir: auditin aparılması proseduru və prinsiplərinə riayət edilməsi; vahid audit proqramının və planının həyata keçirilməsi; audit təsdiqlərinin və sübutlarının müvafiq sənədləşdirilməsi; auditorlar tərəfindən verilən nəticələrin əsaslandırılması. Həmçinin auditin keyfiyyətinə ümumi nəzarət həyata keçirilir: işçilərin şəxsi keyfiyyətlərinə nəzarət; qrup üzvləri arasında vəzifələrin əsaslandırılmış bölgüsü; qanunlara və audit standartlarına uyğunluq.
- Daxili auditin sonrakı keyfiyyətinə nəzarət auditorlar tərəfindən aşağıdakı istiqamətlər üzrə yerinə yetirilən işlərin audit qrupunun rəhbəri tərəfindən yoxlanılması olan mərhələdir: görülən işlərin audit proqramına uyğun olub-olmaması; əldə edilmiş nəticələrin audit sənədlərində müvafiq qaydada təqdim edilib-edilməməsi; nəticələrin görülən işin nəticələrinə uyğun olub-olmaması [3, s.16].



Müəyyən müəssisələrdə auditin keyfiyyətinə nəzarətin aparılması maliyyə uçotunun istənilən sahəsində problemləri müəyyən etməyə və bu problemlərin həlli yollarını müəyyən etməyə kömək edir. Bazar münasibətlərinin inkişafı və möhkəmlənməsi kənd təsərrüfatı məhsullarının satışının uçotu və nəzarətin rasional təşkili problemlərini daha da aktuallaşdırır. Kənd təsərrüfatı məhsullarının satışı üzrə əməliyyatların uçotda tam, vaxtında və etibarlı əks etdirilməsi kənd təsərrüfatı təşkilatlarının gəlirlərinin, xərclərinin və yekun maliyyə nəticələrinin əsaslı və obyektiv formalaşdırılması üçün zəruri şərtdir. Bu qaydaların tələbləri əsasında məhsulların satışı prosesinin uçotunun əsas vəzifələri bu kimi əks etdirmək olar: alıcılar və müştərilər qarşısında müqavilə öhdəliklərinin yerinə yetirilməsinə nəzarətin təmin edilməsi; göndərilən və satılan məhsulların (görülmüş işlərin və göstərilən xidmətlərin) alıcılar və müştərilər üçün vaxtında və keyfiyyətli sənədləşdirilməsi; qiymətqoymanın əsaslılığına və məhsulun keyfiyyətinə, habelə məhsulların (işlərin, xidmətlərin) satışından əldə edilən gəlirlərin daxil olmasına nəzarət; məhsulların (işlərin, xidmətlərin) satışından əldə olunan gəlirlərin, xərclərin və maliyyə nəticələrinin müvafiq hesablarda, maliyyə uçotu registrlərində və maliyyə hesabatlarında əsaslı şəkildə formalaşması. Qeyd olan vəzifələrdən çıxış edərək, ilk növbədə, alıcılar və müştərilərlə bağlanmış məhsulların satışı üzrə müqavilələrin düzgünlüyünü, hüquqi əsaslarını yoxlamaq, daşıma əməliyyatları üzrə bütün ilkin sənədlərin icra keyfiyyətini yoxlamaq lazımdır. Məhsulların satışından gəlirlərin, xərclərin və yekun maliyyə nəticələrinin formalaşmasının əsaslılığını yoxlamaq üçün istehsal prosesinin və məhsulların satışının bütün dövrlərinin əməliyyatlarının uçotunun ətraflı yoxlanılması lazımdır.

Nəzarət prosedurlarının icraçıları məhsulların satışının uçotu qaydasını, habelə məhsulların göndərilməsinin uçotu, alıcılara borcların hesablanması, daxilolmalardan əlavə dəyər vergisinin hesablanması, yazılması üçün ilkin sənədlərdən istifadə etməklə hesabların

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tam müxabirləşməsini dəqiq bilməlidirlər. Müəssisə rəhbəri daxili nəzarəti həyata keçirərkən aşağıdakılara diqqət yetirməlidir;

- kənd təsərrüfatı məhsullarının satışına maliyyə uçotu və daxili nəzarət sisteminin vəziyyətinin ilkin baxışının və sınağının həyata keçirilməsi;
- kənd təsərrüfatı məhsullarının alıcıları və sifarişçiləri ilə bağlanmış müqavilələrin öyrənilməsi;
- kənd təsərrüfatı məhsullarının satışı üzrə əməliyyatların ilkin uçotunun vəziyyətinin öyrənilməsi (əmtəə, hesablaşma və ödəniş sənədlərinin təhlili);
- kənd təsərrüfatı məhsullarının satışının analitik və sintetik uçotunun vəziyyətinin yoxlanılması;
- kənd təsərrüfatı məhsullarının satışı baxımından sənədlərin, reyestrlərin və hesabat formalarının qarşılıqlı yoxlanılmasının həyata keçirilməsi;
- nöqsanların aradan qaldırılması, kənd təsərrüfatı məhsullarının satışından gəlir və mənfəətin artırılması üçün təsərrüfat subyektinə tövsiyələrin müəyyən edilməsi.

Maliyyə uçotu məlumatlarına əsasən məhsulların satışının təhlili və nəzarəti bu kimi istiqamətlər üzrə aparılmalıdır: məhsulların satışının ümumi təhlili; məhsulların satışının göstəricilərinə və dəyişmə dinamikasına nəzarət; istehlakçılar (alıcılar) tərəfindən məhsulların satışının təhlili; satılan məhsulların strukturunun və çeşidinin təhlili; satış planının icrasına nəzarət. Məhsulların satışına daxili nəzarəti təkmilləşdirmək üçün daxili nəzarət standartlarının işlənib hazırlanması və istifadəsi tövsiyə olunur. Bu standartlara uyğun olaraq, daxili nəzarətçilər (auditorlar) nəzarət obyektlərini yoxlamalı və müəyyən edilmiş normalardan kənarlaşmaları (müsbət və ya mənfi), ehtiyatları, fəaliyyətin yaxşılaşdırılması üçün ehtiyatların səfərbər edilməsi tədbirlərini müəyyən etməli, iş proseslərinin məqsədəuyğun şəkildə tənzimlənməsi üçün idarəetmə qərarlarının layihələrini hazırlamalıdırlar. Həmin standartlar müəssisələrin maliyyə uçotu və maliyyə hesabatı məlumatlarının etibarlılığını müəyyən etmək, habelə təşkilatı qarşıdakı kənar nəzarətə hazırlamaq üçün daxili nəzarətçilər (auditorlar) üçün lazımdır. Daxili nəzarətin standartlaşdırılması onun həyata keçirilməsinin keyfiyyətini və kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlirlərin, xərclərin və maliyyə nəticələrinin idarə edilməsi sisteminin səmərəliliyini əhəmiyyətli dərəcədə artıracaqdır. Müəssisədə audit fəaliyyətinin keyfiyyətinə nəzarətin təşkili sistemi daxili bölmə tərəfindən formalaşdırıla və ya kənar təşkilatlar tərəfindən həyata keçirilə bilər. Nəzarətin təşkili audit tədbirlərinin düzgün aparılmasını təmin edir. Audit təşkilatının fəaliyyətinin keyfiyyətə nəzarətin olmaması qanun pozuntusuna gətirib çıxara və auditor təşkilatının işinin keyfiyyətinə təsir göstərə bilər.

**Azərbaycanın kənd təsərrüfatında auditin təkmilləşdirilməsi problemləri və yolları**

Kənd təsərrüfatı məhsullarının satışının yoxlanılması zamanı nəzarət prosedurlarını daha da təkmilləşdirmək üçün təkcə kənd təsərrüfatının xüsusiyyətlərindən deyil, həm də müasir iqtisadiyyatın inkişaf tendensiyalarından və kənd təsərrüfatının idarə edilməsinin informasiya ehtiyaclarından çıxış etmək lazımdır. Keyfiyyətli maliyyə təhlili bütün audit prosesinin əsasını təşkil edir. Ona görə də həm audit təşkilatı, həm də onunla bilavasitə maraqlanan şirkət tərəfindən bu prosesə ən çox diqqət yetirilir. Beləliklə, maliyyə təhlili audit fəaliyyətində böyük rol oynayır. Təsərrüfat subyektinin gələcək inkişafına, onun bazar iqtisadiyyatındakı yerinə mühüm təsir göstərə bilər [4, s.37]. Auditdə səmərəlilik auditin rolu, eləcə də audit təşkilatının və istifadəçilərin maraqları ilə müəyyən edilir. Audit firması üçün auditin səmərəliliyi (daxili səmərəlilik) auditin məqsədinə nail olmaq zamanı onun aparılması xərclərini azaltmaqdan, yəni maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb olan və ya səbəb ola biləcək əhəmiyyətli halları müəyyən etməkdən ibarətdir. Bu, mümkün peşəkar riski



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

minimum məqbul səviyyəyə endirmək üçün zəruri şərtdir [5, s.343]. Vergi və ödənişlərin hesablanmasının düzgünlüyünün yoxlanılması auditin ən çox tələb olunan hissəsidir. Vergi yoxlamasının təşkili məsələlərinin öyrənilməsinin aktuallığı, ilk növbədə, təsərrüfat subyektinin rəhbərliyi ilə mülkiyyətçilərin, habelə investorların maraqları ilə bağlıdır. Vergi hesablamalarının auditinin məqsədi vergi qanunvericiliyinin mümkün pozuntularını minimuma endirməkdir ki, bu da vergi və hüquq-mühafizə orqanları ilə mübahisə riskini azaldacaq, vergi sanksiyaları şəklində maliyyə itkilərinin azaldılmasına kömək edəcəkdir. Vergi yoxlamasının sənədləşdirilməsi maliyyə hesabatlarının auditinin işçi sənədlərinin tərkib hissələrindən biridir. Audit zamanı auditor tərəfindən sistemləşdirilən, onun üçün daimi və cari fayllar formasında olan məlumatlara sənədləşmə deyilir. Sənədlərin standartlaşdırılması üsulları, yəni doldurulma, indeksləşdirmə yoxlama prosedurlarının xarakterindən və həcmindən asılıdır [6, s.2].

Gəlir və xərclərin məqsədli istifadəsinin auditi bu sahədə mövcud normativ-hüquqi bazaya əsaslanmalıdır. Audit apararkən vəsaitlərin qanuniliyini və məqsədli istifadəsini yoxlamaq lazımdır. Belə audit üçün əsas tələblər Azərbaycan Respublikasının "Auditor xidməti haqqında" qanunvericiliklə tənzimlənir [7]. Bu qanunla audit xidmətinin təşkili, audit qurumunun formalaşdırılması və inkişafı, audit fəaliyyətinin həyata keçirilməsi ilə bağlı proseslərin hüquqi tənzimlənməsi, audit xidmətində sahibkarlıq fəaliyyətinin təşkili üçün hüquqi bazanın yaradılması, maliyyə təşkilatlarının auditinin aparılması istiqamətində mühüm addımlar atılmışdır. Çox vaxt kənd təsərrüfatı müəssisələri xarici auditə ehtiyac duymurlar. Əsasən daxili auditə üstünlük verirlər. Daxili auditdə daha çox gəlir və xərclərinə nəzarəti həyata keçirirlər. Gəlir və xərclərə düzgün qiymətləndirilməsi üçün onların daxili auditi təkmilləşdirilməlidir. Kənd təsərrüfatı təşkilatlarında istehsal məsrəflərinin daxili auditinin təkmilləşdirilməsi üzrə tədbirlər aşağıdakılar ola bilər:

- ⇨ Kənd təsərrüfatı istehsalının xüsusiyyətləri nəzərə alınmaqla istehsal məsrəflərinin uçotunun mütərəqqi üsullarının tətbiqi üçün göstərişlərdən istifadə edilməsi.
- ⇨ İstehsal məsrəflərinin maliyyə uçotunda əks etdirilməsinin düzgünlüyünə məsrəf mərkəzləri və məsuliyyət mərkəzləri tərəfindən mütəmadi olaraq sistemli nəzarət.
- ⇨ Əsas və köməkçi istehsalat sahələrində məsuliyyət mərkəzləri tərəfindən rasional, qənaətli xərclərə, resurslardan istifadəyə nəzarətin səmərəliliyinin artırılması.
- ⇨ Məsrəflərin uçotunun məsuliyyət mərkəzləri tərəfindən təşkilindən, yardımçı istehsalat xərclərinin hər bir konkret məsuliyyət mərkəzinə aid edilməsindən, maddələr və yarımmaddələr üzrə istehsal məsrəflərinin uçotunun təşkilindən ibarət olan nəzarət funksiyalarını gücləndirmək məqsədilə məsrəflər uçotunun təkmilləşdirilməsi.
- ⇨ Avtomatlaşdırma və kompüter məlumatlarının emalının geniş istifadəsi və tətbiqi.
- ⇨ Resursların xərclənməsinin rasionallıq dərəcəsinin dəyişməsi ilə əlaqədar təhriflərin, faktiki məsrəflərin müəyyən edilmiş standartlardan kənarlaşmalarının müəyyən edilməsi.
- ⇨ Əsas istehsalın xərclər smetasının icrası haqqında hesabatın işlənib hazırlanması, formalaşdırılması. Smetanın icrasının gedişatının müntəzəm monitorinqi üçün smetaların icrasına dair hesabatlar hazırlanmalı və xüsusi qərarların icrasına cavabdeh olan rəhbərlərə baxılmaq üçün təqdim edilməlidir. Bu cür hesabatların sistemləşdirilməsi və təqdim edilməsinin müntəzəmliyi çox vacibdir. Hesabatda nəzərdə tutulanlardan kənara çıxan göstəricilərə diqqət yetirmək lazımdır.

Aqrar-sənaye kompleksində auditin təşkilati-metodoloji əsaslarını təkmilləşdirmək üçün auditorlarla kənd təsərrüfatı müəssisələri arasında əməkdaşlıq üçün əlverişli qiymət rejimlərini hazırlamaq lazımdır. Auditorun xidmətləri və fəaliyyətləri maksimum qərəzsizliyi və obyektiv yanaşmanı əhatə edir. Auditor tərəflərin mənafeyini deyil, mühasibat və maliyyə intizamının prinsip və meyarlarını, müvafiq qanunvericiliyin və normativ aktların tələblərini

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

rəhbər tutmalıdır. Prinsipcə, auditor qanunsuz fəaliyyətə yol verməməli və buna şərait yaratmamalıdır [8, s.41]. Azərbaycanın kənd təsərrüfatında auditin təkmilləşdirilməsində "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanı mühüm rol oynamışdır. Bu fərman həmin sahənin idarə olunmasında mühüm irəliləyişlərə səbəb olmuşdur. Belə ki, aqrar sahədə şəffaflığın artırılması və dövlət yardımlarından istifadəyə dair məlumat bazasının formalaşdırılması, idarəetmənin təkmilləşdirilməsi məqsədilə "Elektron Kənd Təsərrüfatı" (EST) sisteminin yaradılması istiqamətində mühüm işlər görülüb. Bu sistemə torpaq sahələrinin identifikasiyası, ölkədə təsərrüfatların fərdi identifikasiyası, kənd təsərrüfatı heyvanlarının qeydiyyatı, hər bir təsərrüfat üzrə kənd təsərrüfatı texnikasının qeydiyyatı, hazırlanmış yoxlama vərəqlərinin mərkəzi məlumat bazası kimi yerində yoxlamalar vasitəsilə istifadə edilməsi, qrant müraciətlərinin qeydiyyatı və idarə edilməsi, qrantlar üzrə qərarların qəbulu, müxtəlif növ nəzarətlərin, yerində yoxlamaların, nəzarətin və digər risklərin idarə edilməsi fəaliyyətlərinin dəstəklənməsi daxildir [9; 10, s.248]. Həmin fərmandan irəli gələn vəzifələr auditorların üzərinə ciddi tələblər qoyur. Bütün bu tədbirlərin həyata keçirilməsinə kompleks yanaşma kənd təsərrüfatı müəssisəsinin daxili audit sisteminin işinin yaxşılaşdırılmasına ən böyük töhfə verəcəkdir. Ümumilikdə, kənd təsərrüfatı sənayesi bir çox xüsusiyyətlərə malik olduğundan, hazır məhsulların auditi kənd təsərrüfatı müəssisələri üçün mühüm rol oynayır. Bu o deməkdir ki, auditor kənd təsərrüfatı müəssisələrində işləyərkən normativ bazanı rəhbər tutmaqla müəssisənin xüsusiyyətlərinə maksimum uyğunlaşdırılmış yoxlama metodlarından istifadə etməlidir.

**Nəticə**

Beləliklə, belə nəticəyə gəlmək olar ki, auditin səmərəliliyi auditorun işinə yaradıcı yanaşmasından, aqrar sahədə maliyyə uçotu üzrə xüsusi biliklərin olmasından, habelə normativ bazadan asılıdır. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən kommersiya təşkilatlarının müvafiq obyektlərinin auditini apararkən bu komponentlərin sintezi auditorun uğurunun açarıdır. Ölkəmizdə audit xidmətlərinin səmərəliliyinin artırılmasına audit fəaliyyəti üçün qanunvericilik və normativ bazanın daha da təkmilləşdirilməsi, habelə yüksək ixtisaslı peşəkar audit kadrlarının hazırlanması kömək edəcəkdir. Hazırda auditorların və auditor təşkilatlarının sayı auditorlar arasında rəqabət yarada biləcək səviyyəyə çatıb və təsərrüfat subyektləri daha ixtisaslı tərəfdaş seçmək imkanı əldə ediblər. Bütün bunlar təsərrüfat subyektlərinin, ümumilikdə ölkənin ictimai istehsalının səmərəliliyinin artırılmasına kömək edəcəkdir. Kənd təsərrüfatı müəssisələrində hazır məhsulların auditinin səmərəliliyi səviyyəsinin yüksəldilməsi üzrə mühüm vəzifələrin nəzərə alınması vacibdir: auditin bütün iştirakçıları tərəfindən öz vəzifələrini yerinə yetirməsi; kənd təsərrüfatı müəssisəsinin bütün xidmətləri ilə istehsalın müxtəlif sahələrinə dair biliyə malik adi işçilər arasında sıx əlaqənin olması; yoxlamaların düzgün təşkili - bütün obyektlər nəzarətdə olmalıdır; nəzarət sistemindəki çatışmazlıqların aşkar edilməsi məqsədilə auditin monitorinqinin aparılması; nəzarət xidmətinin fəaliyyətinin müstəqil auditi həyata keçirən orqanların işi ilə əlaqələndirilməsi.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Тураев, А.Н., Байбаева, М.Х. Совершенствование методики проведения внутреннего аудита // Молодой ученый. 2016. — № 4 (108). — С. 504-507.
2. Прокофьева, Т.А. Особенности аудита бухгалтерской отчетности организаций сельскохозяйственной отрасли // Актуальные научные исследования в современном мире. – 2020. – № 12-3(68). – С. 303-308.
3. Мусаева, А.М. Организация контроля качества аудиторской деятельности в сфере продаж сельскохозяйственной продукции и определения финансовых результатов // Вестник Дагестанского государственного университета. Серия 3: Общественные науки. – 2019. – Т. 34. – № 2. – С. 14-21.
4. Султанова, Б.Б. Эффективность аудита // Статистика, учет и аудит. – 2013. – № 1(48). – С. 33-37.
5. Исаева, Н. Некоторые аспекты оценки эффективности аудиторской проверки // Риск: Ресурсы, Информация, Снабжение, Конкуренция. – 2012. – № 2. – С. 343-345.
6. Сунгатуллина, Р.Н., Клинова, Е.А. Документирование аудиторских процедур расчета единого сельскохозяйственного налога // Вестник Вятской ГСХА. – 2021. – № 2(8). – С. 8.
7. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
8. Abbasov, K. İqtisadiyyatda şəffaflığın artırılmasında və hesabatlılığın dürüstlüyünün təmin edilməsində audit funksiyalarının rolunun qiymətləndirilməsi. Strategiya jurnalı, 2020, № 03/04 (57,58) s. 41-45.
9. Heydərova, K. Aqrar sahədə maliyyə resurslarının səmərəli idarə olunması istiqamətləri. Azərbaycan iqtisadiyyatının Strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri. Beynəlxalq elmi-praktik konfrans. Bakı, 21-23 sentyabr 2017, s.247-250.
10. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı , 16 aprel 2014-cü il.



***Джавид Рамиз оглу Меликли***

***Основные направления совершенствования аудита в сельском хозяйстве Азербайджана в современном периоде***

***Резюме***

*Целью исследования – исследуются основные направления совершенствования аудита в сельском хозяйстве Азербайджана в современном периоде. Раскрыты стратегические функции и роль аудита в контексте новых вызовов. Рассмотрена эффективность аудита в развитии сельского хозяйства, которая является одной из важнейших отраслей национальной экономики Азербайджана. Дана эффективность аудита в обеспечении прозрачности и отчётности, определении недостатков и резервов в сельском хозяйстве. Подготовлены предложения и определены важнейшие направления совершенствования аудита в процессах поднятия на новый уровень развития сельского хозяйства на основе новшеств науки и технологий. Методология исследования – сформирована из научных экономических методов – синтеза, анализа, сравнения и обобщения. Далее, учтены подходы и взгляды различных исследователей по проблемам, которые рассмотрены в данной статье. Практическая значимость исследования – отражается в определении возможности усиления и совершенствования роли аудита в развитии сельского хозяйства Азербайджана. Результаты исследования - заключаются в раскрытии недостатков и принятия адекватных мер по повышению эффективности процессов развития сельского хозяйства в условиях новых сложных объективных реалий. Оригинальность и научная новизна исследования – является в формировании отличительных взглядов и подходов по роли аудита в развитии сельского хозяйства в контексте глобальных*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*трансформаций и новых вызовов. На основе серьёзных научных аргументов дана стратегическая роль аудита в вопросах усиления контроля за движением финансовых и инвестиционных потоков, эффективного моделирования использования существующих ресурсов в контексте реализации приоритетных задач, стоящие перед сельским хозяйством. Подготовлены обоснованные предложения по усилению и совершенствованию роли аудита в развитии сельского хозяйства.*

***Ключевые слова***: *сельское хозяйство, аудит, роль аудита в сельском хозяйстве, стратегическая роль аудита, проблемы совершенствования аудита, направления совершенствования аудита.*

***Javid Ramiz Malikli***

## ***The main directions of improving the agriculture audit in Azerbaijan in contemporary times***

***Summary***

*Purpose of the research – is to study the main directions of improving the audit of agriculture in Azerbaijan in contemporary times. The strategic functions and role of audit in the context of new challenges have been presented. The effectiveness of the audit in the development of agriculture, which is important in the structure of the national economy of Azerbaijan, was considered. The importance of audit in identifying resources in various areas of agriculture, ensuring transparency and accountability was emphasized. The directions of improving the audit in raising agriculture to a new stage of development on the basis of scientific and technological innovations have been identified and relevant proposals have been prepared. Research methodology - Economic methods such as analysis, synthesis, comparison and generalization were used on the main issues discussed in the article. The views of other researchers on the problems were also taken into account. The practical significance-The scientific and practical results of the article are related to the possibility of using the role of audit in improving and strengthening the role of Azerbaijan in the development of agriculture. Result of the research- are the identification of existing shortcomings and the adoption of adequate measures to increase the efficiency of development processes in agriculture in the context of complex objective realities in modern times. Originality and scientific novelty of the research- the main scientific innovation is to identify and justify different approaches to the role of audit in the development of agriculture in the context of global transformations and new challenges. The strategic role of the audit in more effectively modeling the use of available resources in the implementation of priority tasks facing agriculture, strengthening control over the movement of financial and investment flows was given with strong arguments. Suggestions were made to improve the role of audit in identifying and implementing stronger agricultural development goals in the long run.*

***Keywords:*** *agriculture, audit, the role of audit in agriculture, strategic importance of audit, problems of audit improvement, directions of audit improvement.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.03.2022.***
***Çapa qəbul olunub: 17.03.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*